**Mehmanəli Məmmədov**
***BDU Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti***
***Zahidə Rzayeva***
***BDU Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti***

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİNİN PREZİDENT KİTABXANASINDA YARADILAN LAYİHƏ TİPLİ TAMMƏTNLİ RESURSLAR ELEKTRON KİTABXANANIN İNNOVATİV RESURS NÖVÜ KİMİ

*Məqalədə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının yeni texnologiyaların tətbiqi, elektron kitabxana yaradılması sahəsində fəaliyyəti təhlil edilir və həmin komteksdə bu kitabxanada yaradılan layihə tipli innovativ səciyyəli tammətnli resursların qısa icmalı verilir.*

***Açar sözlər:*** Prezident Kitabxanası, elektron kitabxana, elektron resurs, elektron toplu, tammətnli resurs, elektron versiya, tematik sayt.

**Giriş.** XXI əsr Azərbaycan kitabxanalarının inkişafında müstəsna bir dövr kimi dəyərləndirilə bilər. Belə ki, ölkədə XX əsrin son dövründən başlayaraq get-gedə daha geniş vüsət alan kitabxana proseslərinin avtamatlaşdırılması, kompüterləşdirlməsi, yeni texnologiya və metodların tətbiqi prosesi əsrin sonlarına doğru ölkə kitabxanaçılığında metodiki səviyyə, təcrübə, təşkilati hazırlıq baxımdan müəyyən bünövrə yaratdı ki, bu da XXI əsrin əvvəllərindən etibarən qısa bir müddət ərzində kitabxanalarda bu sahədə işin çox intensiv inkişafına səbəb oldu. Ölkə miqyasında fəaliyyət göstərən iri kitabxanalar içərisində avtomatlaşdırmanı, kompüterləşməni tam miqyasda tətbiq etmiş ilk kitabxana isə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası oldu. Heç də təsadüfi deyildir ki, görkəmli kitabxanaşünas, professor A. A. Xələfov bu kitabxananın fəaliyyətinə çox yüksək qiymət vermiş və bu kitabxananın işinə çox xarakterik sərlövhəli -"Ölkəmizdə ilk fundamental elektron kitabxana" adlı sanballı məqalə həsr etmişdi. Alim qısa müddət ərzində bu kitabxanada yerinə yetirilmiş işləri təhlil edərək haqlı olaraq göstərirdi ki, bu kitabxana həqiqətən də ölkədə elektron kitabxanaya aid atributlara malik ilk fundamental kitabxanadır. ( [10]. Alim məqalədə kitabxanada yerinə yetirilən digər işlərlə yanaşı, xüsusən də tammətnli informasiya resurslarının yaradılması məsələsinə diqqət yetirmişdi. Tədqiqatçı özünün bir sıra digər əsərlərində də Prezident Kitabxanasının təcrübəsinə müraciət edərək onun fəaliyyətini yüksək qiymətləndirmişdir [9]..

**Əsas hissə.** Qeyd edək ki, bu kitabxana ümummilli lider Heydər Əliyevin göstərişi ilə 2003-cü ildə Bakı şəhərinin iki zəngin kitabxanasının – Mərkəzi Şəhər Kitabxanasının (keçmiş Lenin adına kitabxana) və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin Kitabxanası) bazasında təşkil edilmişdir. Yaradıldığı

gündən etibarən kitabxananın qarşısında müasir elektron kitabxanaların bütün əksər funksiyalarının mənimsənilməsi vəzifəsi qoyulmuşdu.

Ölkənin kitabxanalarında, o cümlədən Prezident Kitabxanasında yeni informasiya texnologiyalarının tətbiqindən bəhs edəndə ilk növbədə həmin texnologiyaların tətbiqinin hüquqi-direktiv əsaslarına diqqət yetirmək lazımdır. Bu baxımdan başlıca hüquqi-direktiv zəmin ölkəmizdə ictimai fəaliyyətin bütün sahələrinin daha səmərəli fəaliyyət göstərməsinin əsas şərtlərindən biri kimi yeni informasiya texnologiyalarının tətbiqini və informasiyalaşdırmanı milli prioritetli vəzifə kimi dəyərləndirən qanunlar, dövlət strategiya və proqramlarıdır. Bu nörmativ sənədlərə 1998-ci ildə qəbul edilmiş "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunu [1]. 12 mart 1999-cu il tarixində qüvvəyə minmiş "Kitabxana işi haqqında" Qanunu, [2]. 2003-cü ilə qəbul edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" adlı proqram sənədini [6]. 2005-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nı [4]. aid edə bilərik.

Bu sənədlər içərisində 2008-ci ilin oktyabrın 6-da isə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" müstəsna mövqeyə malikdir[5]. Həmin vacib dövlət sənədində müasir dövrdə Azərbaycan kitabxanalarının qarşısında duran ən vacib vəzifələr, onların yaxın perspektiv üçün inkişaf istiqamətləri şərh olunmuşdur. Burada ölkədə kitabxana işi tarixində ilk dəfə olaraq bu sahədə görüləcək işlər çox geniş. detallı şəkildə əhatə edilmiş, ən aktual, vacib məsələlər, böyük həcmli vəzifə və tapşırıqlar müəyyənləşdirilmişdir. Dövlət Proqramında respublikamızın kitabxanalarının yenilənməsi, dünya miqyasında ən modern elektron kitabxanalar səviyyəsinə qaldırılması məsələsi xüsusi olaraq vurğulanmışdır və müəyyən edilən bir çox tapşırıqların icraçısı kimi Prezident Kitabxanası da qeyd edilmişdir.

Bu məqamda qısa da olsa "elektron kitabxana" məfhumunun şərhinə nəzər yetirmək zəruridir. Məlumdur ki, son 40 ildə kitabxanaşünaslıq elmində geniş istifadə edilən "elektron kitabxana" məfhumunun bir çox interpretasiyası mövcuddur. Məsələn, ingilis alimi Stefen Pinfild buna "şəbəkə şəklində birləşdirilmiş rəqəmsal mənbələr kolleksiyası və onunla assosiasiya edilmiş texniki və idarəetmə infrasrukturu" kimi vermişdi [12, 529]. Bundan başqa, bir çox digər təruflər də mövcuddur. Lakin bizim fikrimizcə, bu məfhumun müxtəlif tərifləri içərisində görkəmli kitabxanaşünas, Rusiya Federasiyası Dövlət İctimai Elmi-texniki Kitabxanasında (DİETK) İRBİS Kitabxana Avtamatlaşdırma Sisteminin yaradıcılarından biri, professor Y. Şrayberqin verdiyi tərif daha məqbuldur. Onun tərifinə görə, "elektron kitabxana strukturlaşdırma və əlyetərliyin vahid ideologiyası əsasında birləşsdirilmiş lokal və ya paylaşdırılmış elektron resursların məcmusudur" [11. 31]. Tədqiqatlar göstərir ki, müasir



dövrdə dünyada yaradılan əksər məşhur kitabxanalar tərəfindən yaradılan elektron kitabxanalar bu təriflərdə əks olunan şərtlərə cavab verir.

Prezident Kitabxanasında elekron kitabxana yaradılarkan bu istiqamətdə mövcud tendensiyalar araşdırılmış, həmin işin nəzəri bazası, praktik reallaşma imkanları təhlil edilmişdir. 2004-cü ildə. burada kitabxana proseslərinin avtamatlaşdırılması, yeni texnologiyaların tətbiqi barədə qərar qəbul edilərkən perspektivdə məhz elekton kitabxana yaradılması nəzərdə tutulmuşdu. Qeyd edək ki. həmin ildə Prezident Kitabxanasında kitabxana proseslərinin avtamatlaşdırlması üçün proqram təminatı seçilərkən məhz DİETK-nın təcrübəsinə əsalanmış və həmin kitabxanada yaradılmış İRBİS 64 Kitabxanaların Avtomatlaşdırılması Sistemi alınaraq tətbiq edilmişdi.

Prezident Kitabxanasında elektron kitabxana yaradılması işi planauyğun və mərhələli şəkildə həyata keçirilirdi. Bu mərhələlərə aşağıdakıları aid etmək olar:

– Elektron kitabxananın yaradılması üçün texniki hazırlıq işlərinin həyata keçirilməsi (işçi yerlərin kompüterlərlə, periferik qurğularala təchiz edilməsi, daxili kompüter şəbəkəsinin, serverlərin qurulması, şəbəkənn internetə çıxışınının təmin edilməsi,

– Kitabxananın işçilərinin kompüterlə işləmək üçün hazırlaşdırılması, onlara İRBİS 64 KAS ilə işləmək vərdişlərinin öyrədilməsi;

– Kitabxananın internət səhifəsinin yaradılması, domeninin qeydiyyatdan keçirilməsi, hostinq məsələsinin həll edilməsi;

– İRBİS 64 KAS-ın alınaraq Kitabxananın işçi kompüterlərinə və serverlərinə installiyasiya edilməsi;

– Kitabxananın elektron kataloqunu və məqalələrin elektron kartotekasını təşkil edən biblioqrafik verilənlər bazalarının yaradılması;

– Kitabxanaın fonduna daxil olan dövri nəşrlərdən ən əhəmiyyətli materialların, məqallərin seçilərək elektron versiyalarının yaradılması və onlartdan istifadənin təşkili;;

– Kitabxananın fondunda olan ən əhəmiyyətli, yüksək aktuallıq kəsb edən kitabların seçilərərk elektron versiyalarının yaradılması və onlardan istifadənin təşkili;

– Kitabxananın spesifik istifadəçi kontingenti, geniş oxucu qrupları üçün maraq kəsb edən mövzular üzrə müxtəlif növlu sənədləri əhatə edən tematik və ayrı-ayrı görkəmli şəxslərə həsr edilmiş elektron layihələrin (topluların, portal və saytların) yradılması. yenilənməsi və istifadəsinin təşkili;

– Kitabxananın xidmət etdiyi kontingentin biblioqrafik və faktoqrafik sorğularının, tammətnli sənəd sifarişlərinin on layn rejimdə ödənilməsi.

Bunlardan əlavə, Prezident Kitabxanasının əməkdaşları daim burada elektron kitabxananın funksiyalarının daha da təkmilləşdirlməsi, göstərilən xidmətlərin çeşidinin genişləndirlməsi üzrə çalışırlar. Bunun üçün onlar müxtəlif kommunikasiya formaları ilə (telefon, telefaks, elektron poçt, messencerlər və s.) ilə dünyanın müxtəlif ölkələrindən olan həmkarlarla, tanınmış mütəxəssislərlə əlaqə saxlayır, təcrübə mübadiləsi edirirlər. Mütəmadi olaraq Ki-

tabxanaya həm qonşu, həm də uzaq xarici ölkələrdən kitabxana mütəxəssisləri gəlir. Kitabxananın iş təcrübəsi ilə tanış olur, öz nailliyyətləri ilə bölüşür, tövsiyələr verirlər.

2004-cü ildən keçən dövr ərzində Kitabxanada elektron kitabxana yaradılması sahəsində nəzərdə tutulan işlər ardıcıl şəkildə həyata keçirilmişdir və indi o, respublikanın ən mükəmməl elektron kitabxanasına çevrilmişdir. Prezident Kitabxanasında elekron kitabxana yaradılması istiqamətində görülmüş işlərdən çox geniş bəhs etmək olar. Lakin onların təkibində informasiya texnologiyalarının tətbiqinin və elekton kitabxana resurs növünün çox əhəmiyyətli və aktual istiqaməti kimi tematik tammətnli toplularının və multimedia internet layihələrin yaradılması xüsusi əhəmiyyət daşıyır. Kitabxana bu elektron resurs növünü cəmiyyətə "elektron layihə" adı altında təqdim edir. Qeyd etmək vacibdir ki, Azərbaycanda bu resurs növü ilk dəfə olaraq məhz Prezident Kitabxanasında yaradılmağa başlamışdır. Bu tipli resurs Kitabxananın fondunda saxlanan kitablar, dövri nəşrlər və digər materallar əsasında, onların sistemləşdirilməsi, strukturlaşdırılması yolu ilə yaradılır. Bir sıra halda bu tipli topluların tərkibində təkcə mətn deyil, xəritələr, fotolar və digər qrafik informasiya, multimedia sənədlər-səs yazıları, video sənədlər də toplanır. İndiyə kimi Kitabxanada 26 adda belə layihə yaradılmışdır. Bunların hər biri haqqında bir qədər ətraflı məlumat verək.

**1. Heydər Əliyev. Elektron sənədlər toplusu** *(Azərbaycan dilində).* Geniş oxucu kütləsinin istifadəsi üçün nəzərdə tutulan bu elektron resurs, sənədlərin rəqəmsal formatda toplanması və təqdim edilməsi baxımından çox zəngin informasiya mənbəyidir.

**2. İlham Əliyev. Elektron külliyyat** *(Azərbaycan dilində).* Bu layihə Prezident İlham Əliyevin həyat salnaməsini və dövlət başçısı kimi ölkənin sosial-iqtisadi və humanitar sahələrdə dinamik inkişafını, beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsi istiqamətində gördüyü işlərin miqyasını özündə əks etdirən xronologiyanı, nitqlərinin, çıxışlarının, müsahibələrinin tam mətnlərini, haqqında yazılan kitab və məqalələrin elektron versiyalarını və biblioqrafik siyahını əhatə edir.

**3. Odlar Yurdu Azərbaycan** *(Azərbaycan, rus və ingilis dillərində)..* Bu tammətnli elektron layihədə ən qədim zamanlardan başlayaraq ölkəmizin tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, görkəmli şəxsiyyətlərinə dair materiallar yerləşdirilmişdir.

**4. XX əsrin faciəsi - Xocalı soyqırımı** *(Azərbaycan, rus və ingilis dillərində).* Bu layihəyə daxil olan materiallar altı bölmədə qruplaşdırılmışdır. Bu bölmələrdə Dağlıq Qarabağ münaqişəsinin qısa tarixçəsi, Xocalı soyqırımının miqyası, istintaq materialları, zərərçəkənlərin ifadələri, tibbi ekspertiza rəyləri, Xocalı şəhidlərinin siyahısı və s. materiallar yerləşdirilmişdir.

**5. Azərbaycan. Dövlət rəmzləri və atributları** *(Azərbaycan, rus və ingilis dillərində).* Bu layihədə müstəqil Azərbaycanın dövlət rəmzlərinin (bayraq, gerb, himn) yaranmasının tarixinə dar materiallar toplanmışdır.



**6. Naxçıvan Muxtar Respublikası** *(Azərbaycan və ingilis dillərində).* Bu layihədə Naxçıvanın tarixi, Naxçıvan Muxtar Respublikasının yaradılması, diyarın iqtisadiyyatı, təhsili, mədəniyyəti haqqında məlumatlar verən sənədlər toplanmışdır. Ayrıca bölmədə bu mövzuda olan kitabların tammətnli faylları yerləşdiorilmişdir.

**7. Təcavüz. 20 Yanvar. Bakı 1990** *(Azərbaycan, rus və ingilis dillərində)*
Beş fəsildən ibarət olan bu elektron layihədə 20 Yanvar faciəsinin baş verməsinin səbəbləri, onun miqyası haqqında aparılmış tədqiqatlar, məqalə və kitablardan seçmə materiallar toplanmışdır.

**8. Azərbaycan ekologiyası** *(Azərbaycan, rus və ingilis dillərində).* Bu layihə əhalinin ekoloji maarifləndirilməsi və ekoloji mədəniyyətin formalaşdırılmasına yardım məqsədi ilə tərtib edilmişdir. Resurs beş fəsildən ibarət olub ölkəmizdə həyata keçirilən ekoloji siyasətin əsas istiqamətlərinə və biomüxtəlifliyin qorunmasına dair materialları əhatə edir.

**9. Müstəqil Azərbaycan** *(Azərbaycan, rus və ingilis dillərində).* 8 fəsildən ibarət bu resursun ilk 3 fəsli dövlətçilik tariximizi, dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və dünya birliyinə inteqrasiyası sahəsində görülən işləri, demokratik və hüququ dövlət quruculuğu, sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar nəticəsində qazanılan uğurları özündə əks etdirir.

**10. İrəvan şəhəri** *(Azərbaycan və rus dillərində).* İrəvanın şəhərinin tarixinə həsr edilmiş bu layihə şəhərdə azərbaycanlı əhalisinin dəfələrlə kütləvi qırğınlara və deportasiyalara məruz qoyulduğunu, azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin erməni vandalları tərəfindən yer üzündən necə silindiyini mənbələr, əsasında üzə çıxarır.

**11.Azərbaycan Xalq Cümhuriyyəti** *(Azərbaycan, rus və ingilis dillərində),. B*u resurs Azərbaycan Xalq Cümhuriyyətinin tarixi irsini öyrənənlər üçün dəyərli bir mənbədir. Lyihə "Yaranması və fəaliyyəti", "Sənədlər", "Resurslar", "E-kitablar" adlı 4 əsas və 20 yarımbölmədən ibarətdir.

**12. Erməni vandalizmi: Əsirlikdə olan Azərbaycan abidələri** *(Azərbaycan, rus və ingilis dillərində).* Bu elektron layihənin məqsədi erməni vandalları tərəfindən işğal edilmiş ərazilərimizdəki maddi və mədəni sərvətimiz barədə məlumatın dünya ictimaiyyətinə çatdırılmasıdır.

**13. Erməni cinayətləri: Soyqırım. Deportasiya. Terror** *(Azərbaycan və rus dillərində).* Uydurma erməni soyqırımının 100 illiyi ermənilər və onların havadarları tərəfindən qeyd edildiyi ərəfədə internet.istifadəçilərinə təqdim edilmiş elektron layihə arxiv sənədləri, dövri mətbuat materialları, ayrı-ayrı tədqiqatçıların məqalələri əsasında hazırlanmışdır.

**14. Türk xalqlarının kitab abidələri. Elektron** *kitabxana (türk xalqlarının dillərində).* Bu elektron layihə türkdilli dövlətlərin mədəni irsinin bir hissəsi olan kitab abidələrinin Kitabxananın fonduna daxil olan nümunələrinin elektron versiyalarının hazırlanması və fondda olmayan nəşrlərin elektron versiyalarını internet məkanından toplanaraq sistemləşdirilməsi yolu ilə yaradılmışdır.

**15. Mehriban Əliyeva. Azərbaycanın birinci xanımının fəaliyyəti mətbuat səhifələrində** *(Azərbaycan dilində).* Bu elektron tammətnli layihədə Mehriban Əliyevanın Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliği istiqamətində çoxşaxəli fəaliyyəti haqqında materiallar toplanmışdır.

**16. Azərbaycan multikulturalizmi** *(Azərbaycan, rus və ingilis dillərində).* Bu elektron Azərbaycan multikulturalizminin mahiyyətinə və onun bütün aspektləriə dair materiallarıi əhatə edir.

**17. Görkəmli dövlət və elm xadimi Əziz Əliyev (1897-1962)** *(Azərbaycan və rus dillərində).* Bu elektron layihədə Azərbaycanın dövlətçilik və elm tarixində özünəməxsus yeri olan Əziz Məmmədkərim oğlu Əliyevin həyat və fəaliyyəti geniş şəkildə öz əksini tapmışdır.

**18. Azərbaycan və İslam dünyası** *(Azərbaycan dilində). **Bu elektron layihə*** 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması və 12-22 may 2017-ci il tarixində IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi münasibəti ilə yaradılmışdır, Onun yaradılmasının əsas məqsədlərinə müsəlman aləminin birliyini möhkəmləndirmək, İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya nümayiş etdirmək aiddir.

**19. Azərbaycan–UNESCO əlaqələri** *(Azərbaycan və ingilis dillərində).* Bu elektron layihə Azərbaycan – UNESCO əlaqələrinin 25 illiyi ilə əlaqədar olaraq hazırlanmışdır. Resurs 6 əsas bölmədən və 46 yarımbölmədən ibarətdir.

**20. Mir Cəlal.** *(Azərbaycan dilində).* Bu resurs Azərbaycanın görkəmli yazıçı və ədəbiyyatşünas alimı Mir Cəlal Paşayevin həyat və yaradıcılığına həsr edilmişdir.

**21. İlham Əliyev. Elektron külliyyat** *(Azərbaycan dilində).* Bu elektron layihə "Bioqrafiya", "Xronologiya", "Təltiflər", "İqtibaslar" və "Məşhurların fikirləri" bölmələrindən ibarətdir.

**22. Ramiz Mehdiyev. Elektron kitabxana** *(Azərbaycan dilində).* Bu resurs görkəmli dövlət və elm xadimi Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini və elmi irsini əks etdirir.

**23. Bakı.** *(Azərbaycan, rus və ingilis dillərində).* Bu layihə Bakı şəhərinin tarixi, iqtisadiyyatı, mədəniyyəti, incəsənəti haqqında Prezident Kitabxanasının fondunda mövcud olan kitablar və digər materiallar əsasında Azərbaycan, ingilis və rus dillərində tərtib edilmişdir. Resurs 10 fəsil və 40 bölmədən ibarətdir.

**24. Azərbaycan diplomatiyası** *(Azərbaycan dilində).* Bu layihə Azərbaycan diplomatiyasının keçdiyi tarixi yolu işıqlandırmaq və təbliğ etmək məqsədilə hazırlanmışdır. Bu resurs Azərbaycan diplomatiyasının 100 illiyinə həsr edilmişdir.

**25. Azərbaycan diasporu** *(Azərbaycan dilində).* Bu elektron layihədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 16 dekabr 1991-ci ildə Naxçıvanda Dünya Azərbaycanlılarının Həmrəylik gününün rəsmi olaraq qəbul edilməsindən başlayaraq indiyədək Azərbaycan diasporu mövzusuna dair dərc edilmiş materiallar toplanmışdır.



**26. Nəriman Nərimanov** *(Azərbaycan və rus dillərində).* Nəriman Nərimanovun anadan olmasının 150 illiyi münasibətilə hazırlanan bu resurs Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2020-ci il tarixli sərəncamına uyğun olaraq hazırlanmışdır və Nəriman Nərimanovun pedaqoq, həkim, yazıçı, dramaturq, publisist, maarifçi və dövlət xadimi kimi fəaliyyətinə dair müxtəlif dillərdə olan materialları əhatə edir.

**Nəticə.** Bu layihələrin əksər qismi o qədər geniş və zəngindir ki, onların hər biri müstəqil bir tematik internet sayti kimi səciyyələndirilə bilər. Onların hər biri ayrıca internet ünvanına malikdir və müstəqil tematik sayt kimi açılaraq istifadə edilə bilər. Prezident Kitabxanasının bu istiqamətdə fəaliyyətinin təhlili sübut edir ki, bu kitabxana informasiya texnologiyalarınınm kitabxana işində tətbiqi, elektron kitabxanalar yaradılması sahəsində böyük nailiyyətlər qazanmışdır və bu nailiyyətlər ölkəmizdə tələbatçıların informasiya təminatının tamamilə yeni səviyyəyə yüksəlməsinə imkan vermişdir.

**Мехманали Маммадов, Захиду Рзаева**

**Полнотекстовые ресурсы проектного типа, созданные в Президентской библиотеке Управления делами Президента Азербайджанской Республики как инновационный ресурсный тип электронной библиотеки**

**Резюме**

*В статье анализируется деятельность Президентской библиотеки Управления делами Президента Азербайджанской Республики по применению новых технологий, созданию электронной библиотеки, а также приводится краткий обзор инновационных полнотекстовых ресурсов проектного типа, созданных в этой библиотеке.*

***Ключевые слова:*** Президентская библиотека, электронная библиотека, электронный ресурс, электронный сборник, полнотекстовый ресурс, электронная версия, тематический сайт

**Mehmanali Mammadov, Zahida Rzaeva**

**Project-type full-text resources created in the Presidential Library of the Adminstrative Department of the President of the Republic of Azerbaijan as an innovative resource type of electronic library**

**Summary**

*The article analyzes the activities of the Presidential Library of the Adminstrative Department of the President of the Republic of Azerbaijan in the field of application of new technologies, creation of an electronic library and gives a brief overview of innovative project-type full-text resources created in this library.*

***Keywords:*** Presidential Library, electronic library, electronic resource, electronic collection, full text resource, electronic version, thematic site.

**İstifadə edilmiş ədəbiyyatın siyahısı**


1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti.- 1998. – 3 aprel.- S. 2-4.
2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu //Xalq qəzeti.- 1999.- 12 mart.- S.3.
3. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı //Xalq qəzeti.- 2008.- 6 oktyabr.- S.2-3.
4. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı // Xalq qəzeti.- 2005.- 21 oktyabr.- S.2-3.
5. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri,metodiki və təcrübi jurnal. - 2008. - №2. - S. 6-29.
6. Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər) // Xalq qəzeti.- 2003.-17 fevral.- S.3.-4.),
7. "İlham Əliyev. Elektron külliyyat" adlı yeni resursun təqdimatı olub // Azərbaycan. - 2018. - 2 may.- № 98.-S.3.
8. Əhmədov M.H. Prezident Kitabxanasının "Nəriman Nərimanov" elektron layihəsi istifadəyə verilib // Respublika. - 2020. - 3 iyul. - № 126. - S. 6.
9. Xələfov A. A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. - B.: [M.F.Axundov adına Az.Milli Kitabxanası], 2009. - 185 s.
10. Xələfov A. A. Ölkəmizdə ilk fundamental elektron kitabxana // "Xalq qəzeti". -2006.-18 fevral.-№ 36.-S.6.

**Rus dilində**

11. Земсков А. И., Шрайберг Я Л. Электронные библиотеки.- М.: Либерия, 2003.- 352 с.

**İngilis dilində**

12. E-libraries: problems and perspectives. - New Delhi, 2007. - 670 p.


**Rəyçi:** b\m Ə.M.Məmmədov